# Heydər Əliyev: milli dövlət quruculuğunun Naxçıvan mərhələsi

## (“Bir millət, iki dövlət” kəlamı kontekstində)



IV MƏQALƏ

**Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**

### Dövlət quruculuğunun Azərbaycan sinerjisi

III məqalənin sonuncu tezisində milli dövlət quruculuğunun Naxçıvan sinerjisinin böyük potensiala və reallaşma imkanlarına malik olması əsasında, bütövlükdə, Azərbaycanda və hətta, Türk dünyasında müstəqil dövlət quruculuğu prosesini stimullaşdıra biləcəyini vurğulamışdıq. Bu qənaət yalnız nəzəri ümumiləşdirmə deyildir – praktiki-tətbiqi aspektində də onun stimulverici gücü yüksəkdir. Ulu öndər Naxçıvandakı fəaliyyəti zamanı “bir millət, iki dövlət”in konseptual aspektinin konkret praktiki tətbiqinə eksklüziv başlamışdı. Burada fərq fəaliyyət coğrafiyasının miqyasında idi. Lakin ən maraqlısı və əhəmiyyətlisi isə ondan ibarətdir ki, bir türk liderin dühası “kiçik coğrafi məkanda” “gələcək böyük coğrafi məkan” üçün də uğurlu ola biləcək müstəqil dövlət quruculuğu modelini uğurla reallaşdırması ilə bağlıdır.

Postsovet məkanında başqa nümunəsi olmayan bu uğurlu dövlətçilik transformasiyası bir neçə mühüm amil üzərində qurulmuşdur. Onlarin önündə liderin siyasi uzaqgörənliyi gəlir. İkincisi, liderin zəngin Azərbaycan dövlətçilik ənənəsi daxilində fəaliyyət göstərməsi idi ki, bunun üçün Heydər Əliyev ənənə ilə müasirliyin səmərəli sintezini müəyyən edə bilmişdir. Üçüncü amil liderin zəngin siyasi təcrübəsini məharətli siyasi-ideoloji və diplomatik keyfiyyətlərinin tamamlaması ilə bağlıdır. Dördüncüsü, Heydər Əliyevin Azərbaycanın müstəqil olmasından başqa variantı qəbul etməməsi ilə əlaqəlidir. Beşincisi, Heydər Əliyevin lider kimi qətiyyətinin, sarsılmazlığının kökündə dövlət quruculuğu prosesini dərindən bilməsi ilə bağlıdır. Nəhayət, altıncı amil Heydər Əliyevin liderlik miqyasının təməlində liderlik missiyasının dayanmasıdır.

Fikrimizcə, bütün bu amillər Ulu öndərin dövlət quruculuğunun Naxçıvan sinerjisini Azərbaycan miqyasında quruculuq sinerjisinə çevik transformasiya etməsinə imkan vermişdir. Heydər Əliyev Azərbaycan Prezidenti olduğu müddətdə də Türkiyəyə, Rusiyaya, İrana, Avropaya, Çinə, ABŞ-a səfərlərində dövlət quruculuğunun Naxçıvan mərhələsində irəli sürdüyü əsas tezisləri daha geniş və dərin formada ifadə etmişdir. Bu da özünəxas siyasi-ideoloji varislik, ardıcıllıq və məqsədyönlülüyün mühüm göstəricisidir ki, onu ifadə edən lider–şəxsiyyətin məsələni çox gözəl bildiyini sübut edir.

Nəticədə dövlət quruculuğunun Azərbaycan sinerjisinin üç aspektdə siyasi-futuroloji əhəmiyyətini vurğulamağa imkan yaranır. Birinci aspekt Azərbaycanın cəmiyyət olaraq yeni dövlət quruculuğu konseptinin tam mənasında, yəni inklüziv olaraq legitimliyini qəbul etməsindən ibarədtir. Toplumun bütün kəsimləri bu mövqeyi müdafiə etdi, ona dəstək verdi. Həmin həqiqət digər məqamların bazasıdır. Çünki müstəqil dövlət quruculuğunu ilk olaraq cəmiyyət özü anlamalı, ona arxa olmalıdır. Bu, liderin doğru yolda olduğunun əsas göstəricisidir. Onun siyasi-hüquqi əlamətləri seçki qanununun yeniləşməsində, idarəetmə institutlarının fəaliyyətlərinin səmərəliliyinin yüksəlməsində, yeni konstitusiyanın qəbulunda, enerji siyasətinin davamlı aparılmasında və məhkəmə islahatlarında ifadə olundu. Bunların fonunda ordu quruculuğuna xüsusi diqqət göstərilirdi ki, bu da təhlükəsizliyin iqtisadi (yeni enerji strategiyası) aspekti ilə hərbi və geosiyasi aspektlərinin milli təhlükəsizlik müstəvisində birləşdirilməsi demək idi. Bu cəhət Azərbaycan sinerjisinin vacib tərəflərindən birini təşkil etməkdədir.

Azərbaycan sinerjisinin başqa vacib özəlliyi Naxçıvandan başlayaraq siyasi varisliyin yeni anlamda dövlət quruculuğu prosesinə daxil edilməsi ilə əlaqəlidir. Bu, müstəqil dövlətçilik kontekstində olduqca əhəmiyyətli məsələdir. Çünki Avrasiyada ilk dəfə olaraq müasir şərtlər daxilində bir əyalətdə sınaqdan keçən üsul əsasında müstəqil dövlət quruculuğunun strategiyasında siyasi varislik aparıcı faktorlardan biri kimi məzmunlaşırdı. İndi də ikinci belə bir nümunə yoxdur.

Bu məqam sadəcə Heydər Əliyevin nəzəri-konseptual kəşfi və onun praktiki reallaşma təcrübəsi deyildir. O həm də Ulu öndərin müstəqil dövlətçiliyin təminatı aspektində yeni ənənənin əsasını qoyması və həm də sonrakı nəsillərə tövsiyəsi (bəlkə də nəsihəti) idi. Bu prosesin hüquqi təsbiti bir daha illər sonra siyasi varisin qələbəsinin xüsusi rəmzi olan Şuşa Bəyannaməsində əksini tapacaqdı. Vurğulanan keyfiyyət Azərbaycan sinerjisinin milli-regional-qlobal miqyasların qovşağında nəzəri və praktiki üstünlüyünün lakonik ifadəsidir!

Azərbaycan sinerjisinin dövlət quruculuğu kontekstində ikinci vacib aspekti regional miqyasda onun özünü təsdiq etməsi ilə bağlıdır. Məsələ ondan ibarətdir ki, müstəqil dövlət quruculuğunun Azərbaycan sinerjisi dövləti regional lider etməyə imkan yaratdı. Burada bir vilayət miqyasında quruculuq sinerjisinin bütöv ölkə miqyasında elə tərəqqisindən söhbət gedir ki, əsrlərdir görünməyən uğurla ölkə ən çətin regionlardan birinin lideri ola bilmişdir. Məsələnin bu tərəfinin ayrıca öyrənilməsinə ehtiyac vardır.

Regional liderlik Azərbaycan sinerjisinin mahiyyətini çox gözəl ifadə edir. Aydın olur ki, bu sinerji yalnız quruculuq, təhlükəsizlik, əməkdaşlıq ruhunda köklənmiş zəncirvari proseslərin yaratdığı yüksək tərəqqi effekti olan pozitiv hakimiyyət modelini əmələ gətirmişdir. İndi regionda gedən proseslər də təsdiq edir ki, regional lider kimi Azərbaycan Cənubi Qafqazda çox konstruktiv rol oynayır və faktiki olaraq təcavüzkarı və onun havadarlarını bu müstəviyə çəkir. Onun əlamətləri artıq daha aydın görünməyə başlayır. İndi hər bir böyük dövlət Azərbaycanla əməkdaşlıq üçün regiona can atır. Bu, böyük tarixi, siyasi və geosiyasi uğurdur!

Azərbaycan sinerjisinin üçüncü aspekti də çox əhəmiyyətlidir. Burada Azərbaycan sinerjisinin Ümumtürk sinerjisinə transformasiyasını görürük. Təcrübə göstərir ki, bu transformasiyanın təməli, əslində, keçən əsrin 90-cı illərində Naxçıvanda qoyulmuşdur. Onun rəmzi ifadəsi Naxçıvanda Azərbaycan bayrağının parlament salonuna gətirilməsi, sovet qoşunlarının oradan çıxarılması, sərhədlərin sökülməsi və Türkiyə ilə əlaqələrin yenidən qurulması kimi faktorlarda özünü tapmışdır. 2009-cu ildə yenə də Naxçıvanda türk dövlətlərinin ortaq fəaliyyəti ilə bağlı məlum bəyannamə imzalanmışdır (Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə toplantısının 3 oktyabr 2009-cu il tarixli Naxçıvan Bəyannaməsi). Türk Şurası belə yarandı. Sonra bu bəyannamə əsasında 2021-ci ildə İstanbulda Türk Dövlətləri Təşkilatı (TDT) yaradıldı. Eyni zamanda, “Türk Dünyası Baxışı 2040” vizyonu elan edildi. Bununla Naxçıvan sinerjisindən Azərbaycan sinerjisinə və oradan da Ümumtürk sinerjisinə tarixi-siyasi-geosiyasi keçid tamamlandı. Bu keçidin başlıca əlamətlərindən biri onun strateji xarakterli olmasıdır. Artıq türk dövlətləri 2040-cı ilə qədər olan müddət üçün strateji məqsədlərini müəyyən edib, onlar arasında uyğunluq yaratmağı hədəfləmişlər. Bu isə o deməkdir ki, Naxçıvan sinerjisi uğurla Azərbaycanı inteqrasiya edən Azərbaycan sinerjisi yaratdı və hər iki “sinerji mərhələsi”, bütövlükdə, Türk dünyasının inteqrasiyasını təmin edəcək Ümumtürk sinerjisinə transformasiya olundu.

### Ümumtürk sinerjisinin qlobal təsiri: Türk enerji strategiyası fonunda

Naxçıvandan başlayan yolun geniş geosiyasi məkanda konkret nəticələr verəcəyini bəlkə də keçən əsrin 90-cı illərində Heydər Əliyevdən başqa kimsə dərindən dərk etmirdi. Lakin quruculuq proseslərini Ulu öndər elə apardı ki, fəaliyyət miqyasının genişlənməsi ilə dövləti missiyanın arasındakı uyğunluq qətiyyən zərər görmədi. Əksinə, hər yeni mərhələdə öncəki mərhələnin qurucu sinerjisi öz potensialını daha da gücləndirdi. Bu məqam onu göstərir ki, Naxçıvan sinerjisi” həm də pilləvari (ierarxik) formada müstəqil dövlət quruculuğunun imkanlarını daha da genişləndirməyə imkan vermişdir. Naxçıvandakı lider-xalq birliyi uğurla Azərbaycan miqyasında lider-xalq birliyinə transformasiya olunmuş və sonuncu da bütövlükdə türk dövlətləri arasında əməkdaşlığı liderlər-türk xalqları miqyasında birliyi fonunda qurmağa imkan yaratmışdır. Yəni faktiki olaraq, xalqlar, dövlətlər və liderlər miqyaslarında geniş bir geosiyasi məkanda birlik yaranmışdır.

Bunun nəticəsində Ümumtürk sinerjisinin qlobal təsir imkanlarından danışmaq mümkünlüyü yaranmışdır. Bu da əsasən üç istiqamətdə artıq reallaşır. Birinci istiqamət TDT-nin geniş geosiyasi məkanda iqtisadi təsirinin getdikcə güclənməsi ilə bağlıdır. “Bir kəmər, bir yol” layihəsinin reallaşması kontekstində həmin özəllik Səmərqənd Zirvə görüşündən sonra daha konkret cizgilər almaqdadır. Bu istiqamətdə Azərbaycanın daha çox fəallığı müşahidə olunur.

İkinci istiqamət TDT üzvlərinin öz aralarında əməkdaşlığı yen səviyyəyə qaldırmaqla, bütövlükdə, dünyanın digər regionlarına da təsir etməyə başlamasında özünü göstərir. Bu prosesin təsir mexanizmi konkret layihələr əsasında digər qlobal təşkilatlar vasitəsilə reallaşır. Məsələn, Qoşulmama Hərəkatı çərçivəsində yeni müstəmləkəçiliyə və insan haqlarına qarşı ortaq mübarizənin artıq konkret mexanizmi mövcuddur. Onun təşəbbüskarı və qurucusu Azərbaycandır. Digər türk dövlətləri, xüsusilə Türkiyə bu istiqamətdə Azərbaycana ciddi dəstək verir. Bu prosesin genişlənəcəyinə şübhə yoxdur.

Üçüncü istiqamət enerji təhlükəsizliyinin Azərbaycan nümunəsinin indi TDT miqyasında Ümumtürk enerji strategiyası kimi qəbul edilməsi və bununla bağlı əsasən Avropa ilə əlaqələrin yeni səviyyəyə yüksəlməsi ilə əlaqəlidir. “Türk enerji strategiyası” özündə nəqliyyat-logistika, informasiya, hərbi təhlükəsizlik, əməkdaşlıq dəhlizləri kompleksi, “yaşıl əməkdaşlıq” və sair kimi aspektləri birləşdirir. Bu mənada “türk enerjisi” daha geniş anlama və məzmuna malikdir ki, bu da yeni funksionallıq deməkdir.

Belə alınır ki, Naxçıvan sinerjisi Azərbaycanın enerji strategiyasının Ümumtürk enerji strategiyası miqyasına yüksəldilməsində də stimulverici rol oynamışdır. Nəticədə “enerji” anlayışı yeni məna çalarları almış və təbii enerji daşıyıcıları ilə məhdudlaşmır. Buraya artıq türk mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin, dövlətqurma üsulunun, liderlik tərzinin və əməkdaşlıq özəlliyinin məna çalarları da daxildir.

Beləliklə, son tezis: dünya yeni bir qlobal təzahürün – Ümumtürk enerji strategiyasının formalaşmasının şahididir. Bu, çox maraqlı və əhəmiyyətli dünya hadisəsidir. Türklər yeni tarix yaradırlar! Əməkdaşlıq, ədalətlilik, təhlükəsizlik və strateji davamlı inkişaf tarixi! Bu yeniliyin mənbəyi isə Azərbaycandır! Sözün həqiqi mənasında, Azərbaycan yeni dünya yaradır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***